# Əlillərin hüquqları haqqında Konvensiya və onun Fakültativ Protokolu

## Milli Məclis tərəfindən ratifikasiya edilmişdir

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyəti dövründə əlilliyi olan insanların vəziyyətini, onların hüquqlarının müdafiəsi ilə bağlı məsələləri diqqətdə saxlamış, əhalinin qayğıya daha çox ehtiyacı olan bu qrupunun problemlərinin həll edilməsi məqsədilə səlahiyyətləri daxilində zəruri tədbirlər görmüşdür. İlk növbədə, əlillərin hüquq və azadlıqlarının müdafiəsi üzrə Ombudsmanın ixtisaslaşdırılmış müşaviri təyin edilmişdir. Milli qanunvericilik və beynəlxalq-hüquqi aktların, ölkədə bu sahədə vəziyyətin təhlil edilməsi, müvafiq istiqamət üzrə təkliflərin və tədbirlər planının hazırlanması bir vəzifə olaraq qarşıya qoyulmuşdur.**

Ötən dövr ərzində Müvəkkil tərəfindən bu qəbildən olan insanların hüquqlarının müdafiəsinə yönəlmiş müxtəlif tədbirlər təşkil edilmiş, aidiyyəti dövlət qurumları qarşısında bir sıra əhəmiyyətli təkliflər irəli sürülərək nəticəsi nəzarətdə saxlanılmış və bir çox hallarda həmin təkliflərdə əks olunmuş məsələlər müsbət həll olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının 3-cü bəndində nəzərdə tutulmuş, dövlətimizin tərəfdar çıxmadığı insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq və regional konvensiyaların nəzərdən keçirilməsi və həmin sənədlərə ölkəmizin qoşulması istiqamətində tədbirlərin görülməsi bir sıra dövlət qurumlarına həvalə edilmiş və eyni zamanda bu sahədə fəaliyyətin həyata keçirilməsi Ombudsmana tövsiyə edilmişdir.

İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin dövlətlər tərəfindən ratifakasiya edilməsi və eləcə də müsbət beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi, həm insan hüquqlarının səmərəli müdafiəsi, həm də milli qanunvericiliyin inkişafı baxımından mühüm əhəmiyyətini nəzərə alan Müvəkkil, 2006-cı il üzrə illik məruzəsində BMT Baş Məclisi tərəfindən həmin ilin 13 dekabr tarixində qəbul edilmiş və 30 mart 2007-ci il tarixdən etibarən BMT-yə üzv ölkələr tərəfindən imzalanmaq üçün açıq elan edilmiş Əlillərin hüquqları haqqında Konvensiya və bu sənədin Fakültativ Protokolunun dövlətimiz tərəfindən imzalanmasını, sonrakı mərhələdə isə ratifikasiya edilməsini təklif etmiş və bu istiqamətdə ardıcıl iş aparır. İlk əvvəl, adı çəkilən Konvensiya və bu sənədin Fakültativ Protokolu YUNİSEF-in dəstəyi ilə Azərbaycan dilinə tərcümə olunmuş və əlil təşkilatları ilə müzakirələr keçirilmiş, məsləhətləşmələr aparılmışdır.

Ombudsmanın bu sənədlərin ratifikasiya etmək təklifi müsbət qarşılanmış və dövlətimizin əlilliyi olan insanlara diqqəti nəticəsində adı çəkilən Konvensiya və onun Fakültativ Protokolu 9 yanvar 2008-ci il tarixdə Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi tərəfindən imzalanmış və bununla da Azərbaycan dövləti bu Konvensiyanı ratifikasiya etmək öhdəliyini götürmüşdü.

Təqdirəlayiq haldır ki, Milli Məclisin 2 oktyabr 2008-ci il tarixdə keçirilmiş payız sessiyasının ilk iclasında əsas məqsədi əlillər tərəfindən bütün insan hüquqlarının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də onların ləyaqətinə hörmət edilməsini dəstəkləməkdən ibarət olan "Əlillərin hüquqları haqqında" Konvensiya və onun Fakültativ Protokoluna qoşulmaq barəsində qərar qəbul edilmiş, bununla da Azərbaycan Respublikası bu mühüm beynəlxalq sənədləri ratifikasiya etmiş dövlətlər sırasına daxil olmuşdur.

Məlumdur ki, beynəlxalq müqavilələr yalnız ratifikasiya olunduqdan sonra iştirakçı dövlətlər üçün məcburi xarakterə malik olur və müvafiq öhdəliklərin yerinə yetirilməsi bir vəzifə kimi qarşıda durur.

Müvəkkil Konvensiya imzalandıqdan dərhal sonra hələ ölkəmiz üçün məcburi xarakterə malik olmasa belə orada təsbit olunmuş bir sıra mütərəqqi müddəaların həyata keçirilməsi istiqamətində mühüm addımlar atmışdır və bu proses davamlı olaraq həyata keçirilməkdədir.

Belə ki, Ombudsman əlillik dərəcəsinin müəyyən edilməsi ilə bağlı tibbi-sosial ekspert komissiyalarında vətəndaşlara qarşı yol verilən neqativ hallarla əlaqədar zəruri tədbirlərin görülməsi, dayaq-hərəkət sistemi pozulmuş və buna görə də araba ilə hərəkət etmək məcburiyyətində olan əlillərin sərbəst hərəkəti üçün küçələrdə, yolüstü və yolaltı keçidlərdə pandusların qurulması, ictimai nəqliyyat parkının yeniləşdirilməsi zamanı müasir beynəlxalq standartlara cavab verən, hərəkəti məhdud olan əlil insanlar üçün də xüsusi vasitələrlə təchiz olunmuş avtobusların alınması, araba ilə hərəkət edən əlillər üçün münasib hündürlükdə telefon avtomatlarının quraşdırılması və bu rabitə müəssisələrinin yerləşdiyi binaların giriş hissəsində pandusların qurulması, eşitmə qabiliyyətini tam və ya qismən itirmiş əlillərin zəruri informasiya ilə təmin edilməsi sahəsində problemlərin həlli məqsədilə ictimai əhəmiyyətli informasiya və digər televiziya verilişlərinin, o cümlədən əlillərin cəmiyyətə sosial inteqrasiyası problemlərini işıqlandıran proqramların subtitrləşdirilməsi üçün tədbirlərin görülməsi, kino və video məhsullarının subtitrlərlə buraxılması, əlillərə ünvanlanmış teleradio proqramlarının hazırlanması, paytaxtda nəqliyyatın hərəkət intensivliyi yüksək olan küçə və prospektlərində gözdən əlillər üçün səsli işıqforların və əlavə yol nişanlarının quraşdırılması, əlilliyi olan insanların xəstəliyi və funksional pozuntuları nəzərə alınmaqla yeni yaşayış binalarının tikilməsi və onların mənzillə təmin olunması və s. təklifləri məhz bu qəbildəndir.

Bundan əlavə, Müvəkkili hər il Azərbaycan Respublikasının yeni Dövlət Büdcəsi müzakirə olunarkən əlilliyi olan insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş müvafiq təkliflər paketi hazırlayaraq aidiyyəti üzrə təqdim edir və sevindirici haldır ki, onların böyük əksəriyyəti nəzərə alınır. Qeyd olunmalıdır ki, Müvəkkil Əlil Təşkilatları İttifaqı ilə birgə "Əlillər üçün bərabər hüquqlar və bərabər imkanlar", 5 may - Avropa Əlilliyi olan İnsanların Hüquqlarının Müdafiəsi gününə həsr edilmiş "Əlillərin cəmiyyətə inteqrasiyası: problemlər və perspektivlər", habelə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyinə və "3 dekabr - Beynəlxalq Əlilliyi olan İnsanlar Günü"nə həsr olunmuş "Əlillərin hüquqları haqqında Konvensiya: ləyaqət və ədalət hamı üçün" mövzusunda konfranslar keçirmişdir.

Təqdirəlayiq haldır ki, ölkəmizdə keçirilmiş prezident seçkilərində gözdən əlillərin seçki hüquqlarının təmin edilməsi üçün onların Brayl üsulu ilə səs verməsinə imkan yaradılmışdır.

**Kəmalə Qasımova**

**YALAN**

Həqiqəti pıçıltıyla dedilər,
Haylı-küylü yalanların içində...
N.Kəsəmənli

*Yalan olub ömrümüzün mənası,*
*Məsləkindən dönənlərin içində.*
*Yalanlardan dolur səbr kasası,*
*Yalançılar yalandan and içəndə.*

*Yalan gəlir bir də yalan üstünə,*
*Bu yalanın zəhərini udmamış.*
*Yalan durub xalqımızın qəsdinə,*
*Xəstə Vətən yatağından durmamış.*

*Yalanın üstündən sakit keçməklə,*
*Yaratdıq bir daha yalana meydan.*
*Yalan dostluğuna uyduq düşmənin,*
*Getdi Vətənimiz yalana qurban.*

*Hər gün inamımız boşa çıxdıqca,*
*Torpaq qayıtmağı dönür yalana.*
*Keçən yalanları biz unutduqca,*
*Yenə inanırıq gələn yalana.*

*Acı həqiqətdən bezdik, tükəndik,*
*Daha ümidimiz qalıb yalana.*
*Qaçqın, köçkün adın bəsdi gəzdirdik,*
*Bir gün bu adımız dönə yalana.*

PUL

*Səni kağız bilib kağız tanıdıq,*
*Amma pul adını heç unutmadıq.*
*Çoxsansa gizlətdik, azsansa saydıq,*
*Varımız, yoxumuz oldun, kağız-pul!*

*Sanki sənin üçün çalışır hamı,*
*Sən insan oğlunun şöhrəti-şanı.*
*Gəlib gətirirsən sevincli anı,*
*Gedəndə alırsan canı, qansız-pul!*

*Yoxsansa-kasıbın töhmətisən sən,*
*Varsansa-varlının hörmətisən sən.*
*Arsızın namusu, qeyrətisən sən,*
*Adsızın adısan, şanısan, ay pul!*

*Sən ümid yerisən, pənah yerisən,*
*Heç canlı deyilsən-can da verirsən.*
*Kaş bütün evlərə eyni girəsən,*
*Paxılsan, nazlısan, qazlısan, ay pul!*

*Nə hissin, nə qəlbin, nə də ağlın var,*
*Səni qazanmaqçün nə çoxdu yollar.*
*Nə olsun baş əyib səni sayırlar,*
*İylisən, çirklisən, səfilsən, ay pul!*

**REDAKSİYADAN: Qəzetimizin bu sayının araya-ərsəyə gəlməsində göstərdiyi qayğıya görə BƏC-in İdarə Heyətinin üzvü Cahid Sabir oğlu Qasımova öz xüsusi təşəkkürümüzü bildiririk.**

# Əlillər cəmiyyətdə öz yerlərini tapırlar

## *"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reablitasiya Mərkəzi bu istiqamətdə çox işlər görür*

***"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzindən verilən məlumata görə, mərkəz bu yaxınlarda "Ağstafa rayonunda yaşayan 8 nəfər əlil üçün süpürgə bitkisini becərməklə gəlir-gətirən iş yerinin yaradılması" layihəsini həyata keçirib. Qed edək ki, "Dirçəliş" GSPRM qaçqın və məcburi köçkün ailələrindən olan imkansız gənclərin cəmiyyətə yenidən inteqrasiya olunması, müharibə nəticəsində əlil olmuş, minadan zərərçəkmiş gənclərin reabilitasiyası, onların sosial və psixoloji problemlərinin həlli, hüquqlarının bərpası, və s. sahələrdə layihələr həyata keçirən qeyri-hökumət təşkilatıdır.***



Mərkəzin bildirdiyinə görə, layihə Finlandiyanın Abilis Fondu tərəfindən maliyyələşdirilib. Layihə gəlir gətirən kənd təsərrüfatı layihəsi olmaqla rayonda yaşayan 8 nəfər əlil insanın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa yönəlib. Layihə süpürgənin becərilməsi, ona qulluq edərək aqrotexniki qaydada yetişdirilməsi və daha sonra biçilərək Azərbaycanda demək olar ki, bütün ailələrdə məişətdə işlədilən hazır formaya salınması və satılaraq əlillərin və onların ailələrinin maddi-sosial rifahını yaxşılaşdırmaq məqsədi daşıyır. 2008-ci ilin aprel ayından noyabr ayına qədər həyata keçirilən layihə çərçivəsində "Dirçəliş" GSPRM ilə bələdiyyə idarəsi arasında sıx əməkdaşlıq münasibətləri qurulub. Layihənin iştirakçıları layihənin nəticələrindən razılıqlarını bildiriblər.



Mərkəzin həyata keçirdiyi layihələr arasında əsas etibarilə gənclərin İİV/QİÇS-ə yoluxmasının və narkomaniya qurşanmasının qarşısının alınmasına, minaya düşən əlillərin öz hüquqlarından xəbərdarlığının artırılmasına və sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəlmiş layihələr xüsusilə fərqlənir.

Məlumat üçün bildirək ki, əlverişsiz şəraitdə yaşayan gənclərin cəmiyyətin bütün sahələrində tam iştirakına kömək etmək məqsədilə "Dirçəliş" GSPRM imkansız, əlil, minadan zərərçəkmiş, qaçqın və məcburi köçkün ailələrindən olan gənclərin sosial və psixoloji problemlərinin həllinə yönəlmiş 80-dən artıq layihə həyata keçirib, kitabça və broşüralar nəşr edib, dəyirmi masa müzakirələri, seminar və konfranslar həyata keçirib, kütləvi informasiya vasitələrində iki yüzdən artıq məqalə nəşr etdirib və gənclər sahəsində araşdırmalar aparıb. Qeyd edək ki, "Dirçəliş" GSPRM-in iki yüzə qədər gənc üzvü var.

***Hikmət İslamoğlu***

# Minnətdarlıq

"Əlillər Dünyası" müstəqil ictimai - siyasi qəzetinin yaradıcı kollektivi və BƏC-in İdarə Heyətinin üzvləri Azərbaycan Respublikası Gəncliyə Yardım Fondunun əməkdaşı İsrail Əliyevə redaksiyamıza göstərdiyi köməkliyə görə öz dərin təşəkkürünü bildirir, ona cansağlığı və işlərində yeni-yeni uğurlar arzulayır.

# REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

## Qeyd: Redaksiya Heyətinin üzvləri eyni zamanda "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin üzvləridir

**Rafiq Əliyev,** ADNA-nın Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri, texnika elmləri dokroru, professor, ABŞ-ın Corciya Dövlət Universitetinin Biznesin idarə olunması Proqramının direktoru

**Nisəxanım Məmməd qızı Mirişli,** Ə.Əliyev adına ADHTİ Yoluxucu xəstəliklər kafedrasının müdiri, professor, tibb elmləri doktoru, Ekologiya və həyat fəaliyyəti təhlükəsizliyi elmləri Beynəlxalq Akademiyasının akademiki,

**Qədir Çərkəz oğlu Rüstəmov**, Respublikanın xalq artisti, "Şöhrət" ordenli, II qrup əlil,

**Mir Müstəqil Mir Bağır oğlu Ağayev,** AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri namizədi,

**Akif Səməd oğlu Əliyev,** ADPU-nun dosenti, filologiya elmləri namizədi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,

**Niyazi Məhəmməd oğlu Məmmədov,** məcburi köçkün, I qrup Qarabağ müharibəsi əlili,

**Hüsaməddin Bərxudar oğlu Xudiyev,** II qrup Qarabağ müharibəsi əlili,

**Mahir Əvəz oğlu Əzizov,** II qrup Qarabağ müharibəsi əlili,

**Fikrət Kamran oğlu Şirinov,** əmək veteranı

**Məlahət İsfəndiyar qızı** Abdullayeva, məktublar şöbəsinin müdiri,

**Bəşir İsrail oğlu Mahmudov,** redaktor müavini, təqaüddə olan polkovnik-leytenant, Qarabağ müharibəsi veteranı,

**Əfrail Paşa oğlu Hüseynov,** redaktor, təqaüddə olan polkovnik-leytenant, filosof,

**Meybulla Həbi oğlu Məcidov,** advokat

**Cahid Sabir oğlu Qasımov,** məcburi köçkün, Qarabağ müharibəsi veteranı,

**Fikrət Fərəc oğlu Babayev,** I dərəcəli ömürlük əlil.

# Allah rəhmət eləsin!

"Əlillər Dünyası" qəzetinin kollektivi 5 saylı Şəhər Klinik Xəstəxanasının şöbə müdiri Tahir Axundova və Azər Axundova, qardaşları

**Xaliqin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Əlillər Dünyası" qəzetinin kollektivi Əliş Əliyevə, anası

**Nazxanımın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi və MMC-nin direktoru:
Tahir Xudiyev
Tel: (050) 363-99-09

Redaktor: Əfrail Hüseynov
Redaktor müavini: Mənsur İbrahimli
Redaksiyanın ünvanı:
Ş. Mirzəyev küç. 36
Tel: (012) 421-54-08

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb səhifələnmiş və "Ekspress Servis" mətbəəsində çap olunmuşdur.
*Müəllif və redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.*
Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.

Şəhadətnamə № 0104-P6940826
"Texnikabank" KB-nin Nizami filialı
H/h: 38030001490001
Valyuta hesabı: 38130001490001
VÖEN: 1600089551
Tiraj: 5000
Sifariş: 248

E-mail:
elillerdunyasi@rambler.ru